**Tibb müəssisələrində ixtisaslı kadr çatışmazlığının aradan qaldırılmasına dair 2022-2025-ci illər üçün**

# PROQRAM

## *1. Ümumi müddəalar*

1.1. “Tibbi Ərazi Bölmələri İdarəetmə Birliyinin (bundan sonra - “TƏBİB”) tabeliyində olan tibb müəssisələrində (bundan sonra – tibb müəssisələri) ixtisaslı kadr çatışmazlığının aradan qaldırılması üzrə Proqram” (bundan sonra – Proqram) tibb müəssisələrində kadr potensialının gücləndirilməsi ilə bağlı həyata keçirilən tədbirlərə dair münasibətləri tənzimləyir.

1.2. Proqram çərçivəsində xarici ölkədə təhsilini bitirmiş həkim-mütəxəssislərin Bakı və Sumqayıt şəhərləri, Abşeron rayonu ərazisində fəaliyyət göstərən tibb müəssisələrinə cəlb edilməsinə 2025-ci il iyulun 1-i tarixindən yol verilmir.

## 2. Proqramın məqsədi

2.1. Proqramın məqsədləri aşağıdakılardır:

2.1.1. tibb müəssisələrində çalışan tibb və qeyri-tibb işçilərinin ixtisaslarının artırılması;

2.1.2. tibb müəssisələrində əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi;

2.1.3. əhalinin icbari tibbi sığorta çərçivəsində tibbi xidmətlərə çıxış imkanlarının genişləndirilməsi.

2.2. Proqramın 2.1-ci bəndində nəzərdə tutulmuş məqsədlər xarici ölkədə təhsilini bitirmiş həkim-mütəxəssislərin tibb müəssisələrinə cəlb edilməsi ilə təmin edilir.

## 3. Xarici ölkədə *təhsilini bitirmiş* həkim-mütəxəssislərin tibb müəssisələrinə cəlb olunması

3.1. Proqram TƏBİB tərəfindən tibb müəssisələrinə əmək müqaviləsi əsasında işə cəlb edilən və xarici ölkədə təhsil müəssisəsini bitirmiş həkim-mütəxəssislərə (bundan sonra – həkim-mütəxəssis) şamil olunur.

3.2. Cərrahi və radioloji profilli ixtisaslar üzrə həvəsləndirici əlavələrin məbləği 6500 (altı min beş yüz) manatdan, terapevtik və pediatrik profilli ixtisaslar üzrə isə 5000 (beş min) manatdan az olmamaq şərtilə, həkim-mütəxəssisin əməkhaqqı İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin *(bundan sonra Agentlik)* İdarə Heyətinin 21 yanvar 2020-ci il tarixli 2 nömrəli Qərarı ilə təsdiq edilmiş “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələrində çalışan səhiyyə işçilərinin əməyinin ödənilməsi Qaydası"na (bundan sonra - Qayda) uyğun olaraq müəyyən edilir.

3.3. Həkim-mütəxəssislər xarici təcrübənin, müasir müayinə-müalicə metodlarının tibb müəssisələrində çalışan yerli kadrlara öyrədilməsi, həkimlərin nəzəri biliklərinin və praktik vərdişlərinin yaxşılaşdırılması istiqamətində işlərin görülməsi üzrə öhdəlik daşıyır.

3.4. Tibb müəssisəsi tərəfindən təqdim edilən həkim-mütəxəssislərə həvəsləndirici əlavənin tətbiq edilməsi onların bilik səviyyəsi, peşə hazırlığı, ümumi dünyagörüşü nəzərə alınmaqla Agentliyin İdarə Heyətinin qərarı ilə təsdiq olunan “Xarici ölkədə təhsil almış həkim-mütəxəssislərə həvəsləndirici əlavənin tətbiq edilməsinin qiymətləndirilməsi üzrə Komissiya”nın (bundan sonra - Komissiya) Əsasnaməsində göstərilən meyarlara əsasən həyata keçirilir.

3.5. Proqram çərçivəsində Komissiyanın qərarına əsasən müəyyən edilən tibbi ərazi bölmələrində fəaliyyət göstərən maddi texniki bazası yüksək tibb müəssisələrinə üstünlük verilir.

3.6. Proqram çərçivəsində hər il üzrə ümumi sayı 100-dən (cərrahi və radioloji profilli ixtisaslar üzrə 60 nəfər, terapevtik və pediatrik profilli ixtisaslar üzrə isə 40 nəfər olmaqla) və tibb müəssisələrinin hər birinə 10-dan çox olmamaq şərtilə Komissiya tərəfindən müəyyən edilən həkim-mütəxəssis cəlb olunur.

### *3-1. Həvəsləndirici əlavələrin tətbiq edilməsi və müddəti*

3-1.1. Həkim-mütəxəssisə Proqramın 3.2-ci bəndində göstərilmiş həvəsləndirici əlavələrin tətbiqi 6 ay müddətinə nəzərdə tutulur.

3-1.2. Komissiya işə qəbul zamanı tibb müəssisəsi rəhbərinin TƏBİB-ə ünvanlanmış həkim-mütəxəssisə ehtiyac olması barədə təqdimatı və zəruri maddi-texniki bazaya malik olduğuna dair əsaslandırılmış məktubu əsasında Komissiyanın Əsasnaməsində göstərilən meyarlara cavab verdikdə həkim-mütəxəssisə həvəsləndirici əlavənin tətbiq edilməsi barədə qərar qəbul edir.

3-1.3. Həkim-mütəxəssis bu Proqramın 6-cı hissəsində nəzərdə tutulmuş qaydada həyata keçirilən monitorinqdən müvəffəqiyyətlə keçmədikdə Komissiya həvəsləndirici əlavənin ödənilməsinin dayandırılması barədə qərar verir.

3-1.4. Həkim-mütəxəssisə həvəsləndirici əlavənin tətbiq edilməsinin davam etməsi barədə Komissiya tərəfindən qəbul edilmiş qərar növbəti 6 ay müddətinə uzadılmaqla nəzərdə tutulur.

### *4. Proqramın maliyyələşdirilməsi*

4.1. Proqramın maliyyələşdirilməsi icbari tibbi sığorta fondunun vəsaiti hesabına həyata keçirilir.

4.2. Proqramın 3.2-ci bəndində həkim mütəxəssislərə ödənilməsi nəzərdə tutulmuş həvəsləndirici əlavələrin məbləği müvafiq tibb müəssisəsinin rəhbərinin sifarişi əsasında icbari tibbi sığorta fondundan tibb müəssisələrində kadr potensialının gücləndirilməsi məqsədilə ayrılmış xərc maddəsində nəzərdə tutulan vəsait hesabına maliyyələşdirilir. Qaydaya uyğun olaraq həkim mütəxəssislərə işin nəticələrinə görə hesablanmış həvəsləndirici əlavələrin məbləği Proqramın 3.2-ci bəndində nəzərdə tutulmuş həvəsləndirici əlavələrin məbləğindən çox olduğu halda yaranacaq fərqin maliyyələşdirilməsi icbari tibbi sığorta fondundan “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxsin tabeliyindəki tibb müəssisələri üzrə icbari tibbi sığorta ödənişləri və dotasiya məbləği üzrə ayrılmış xərc maddəsində nəzərdə tutulan vəsait hesabına aparılır.

### *5. Monitorinqin həyata keçirilməsi*

5.1. Monitorinq həkim-mütəxəssislərin fəaliyyətinin və iş şəraitinin qiymətləndirilməsi məqsədi ilə Agentliyin İdarə Heyəti sədrinin əmri ilə təsdiq edilmiş tərkibdən ibarət Monitorinq Komissiyası tərəfindən həyata keçirilir.

5.2. Hər bir həkim-mütəxəssisin 6 aylıq fəaliyyəti ilə bağlı Proqramın əlavəsində müəyyən edilmiş qaydada həyata keçirilən monitorinqin nəticəsinə dair əsaslandırılmış təqdimat Monitorinq Komissiyası tərəfindən İdarə Heyətinə, TƏBİB-ə və Komissiyaya təqdim edilir.

*İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin 2021-ci il 10 dekabr tarixli 43 nömrəli Qərarı ilə təsdiq edilmiş“Tibb müəssisələrində ixtisaslı kadr çatışmazlığının aradan qaldırılmasına dair 2022-2025-ci illər üçün Proqrama*
*Əlavə*

## *Həkim-mütəxəssislərin monitorinqinin aparılması*
## *Qaydası*

### *1. Ümumi müddəalar*

1.1. Bu Əlavə həkim-mütəxəssislərin Proqram çərçivəsində altı aylıq müddət ərzində fəaliyyətinin Monitorinq Komissiyası (bundan sonra – Komissiya) tərəfindən fəaliyyət göstəricilərinə uyğunluğunun qiymətləndirilməsinə dair münasibətləri tənzimləyir.

1.2. Hər bir həkim-mütəxəssis Proqram çərçivəsində fəaliyyətinin davam etdirilməsi üçün bu Qaydada nəzərdə tutulmuş göstəricilərə uyğun fəaliyyət göstərməlidirlər.

### *2. Fəaliyyət göstəriciləri*

2.1. Həkim-mütəxəssisin fəaliyyətinin Komissiya tərəfindən qiymətləndirilməsi göstəriciləri aşağıdakılardır:

2.1.1 peşəkar fəaliyyət;

2.1.2. şəxsi keyfiyyətlər.

### *3. Peşəkar fəaliyyətə dair göstəricilər*

3.1. Həkim-mütəxəssisin altı aylıq müddət ərzində peşəkar fəaliyyəti üzrə yerinə yetirilməli olan göstəricilər aşağıdakılardır:

3.1.1. cərrahi ixtisaslar üzrə icra edilən əməliyyat sayının 120-dən az olmaması;

3.1.2. terapevtik ixtisaslar üzrə müayinə edilən pasiyent sayının 2400-dən az olmaması;
3.1.3. radioloq ixtisası üzə təhlil edilən nəticələrin sayının 1200-dən az olmaması;
3.1.4. anestezioloq-reanimatoloq ixtisası üzrə iştirak edilən əməliyyat sayının 240-dan az olmaması.
3.1.5. tibbi xidmət göstərdiyi pasiyentlərin 70%-inin məmnunluq göstəricisinin olması;
3.1.6. altı dəfədən az olmayaraq öz ixtisası üzrə təqdimat etməsi;
3.1.7. altı dəfədən az olmayaraq klinik halın müzakirəsini təşkil etməsi;
3.1.8. bir dəfədən az olmayaraq elmi-praktik konfranslarda iştirak etməsi;
3.1.9. ən azı iki həkim-assistentin bilik və bacarıqlarının inkişafına cəlb edilməsi.

3.2. Bu Əlavənin 3.3-cü bəndi nəzərə alınmaqla, həkim-mütəxəssis bu Əlavənin 3.1-ci bəndində nəzərdə tutulmuş göstəriciləri yerinə yetirdikdə ona verilən həvəsləndirici əlavələr “Xarici ölkədə təhsil almış həkim-mütəxəssislərə həvəsləndirici əlavənin tətbiq edilməsinin qiymətləndirilməsi üzrə Komissiya”nın qərarına əsasən 6 ay müddətinə uzadılır. Həkim-mütəxəssis həmin göstəriciləri yerinə yetirə bilmədikdə “Xarici ölkədə təhsil almış həkim-mütəxəssislərə həvəsləndirici əlavənin tətbiq edilməsinin qiymətləndirilməsi üzrə Komissiya”nın qərarına əsasən həvəsləndirici əlavələrin tətbiqi dayandırılır.

3.3. Təcili və təxirəsalınmaz tibbi yardım şöbəsində (bölməsində), şöbə və (və ya) bölmə müdiri vəzifəsində çalışan, tibb müəssəsində müvafiq ixtisas üzrə kadr çatışmazlığı olan vəzifədə çalışan və ya inzibati işə cəlb edilmiş həkim-mütəxəssislər bu Əlavənin 3.1.1-3.1.4-cü yarımbəndlərində nəzərdə tutulan göstəriciləri yerinə yetirmədikdə, onlara həvəsləndirici əlavələrin tətbiqinin davam etdirilməsi məsələsinə tibb müəssisəsinin rəhbərinin Komissiyaya təqdim etdiyi əsaslandırılmış təqdimatı əsasında baxıla bilər.

3.4. Komissiya bu Qaydanın 3.3-cü bəndində nəzərdə tutulan təqdimatda göstərilən əsasları və ona əlavə olunmuş sənədləri araşdırdıqdan sonra əsaslandırılmış təqdimatı “Xarici ölkədə təhsil almış həkim-mütəxəssislərə həvəsləndirici əlavənin tətbiq edilməsinin qiymətləndirilməsi üzrə Komissiya”ya təqdim edir. “Xarici ölkədə təhsil almış həkim-mütəxəssislərə həvəsləndirici əlavənin tətbiq edilməsinin qiymətləndirilməsi üzrə Komissiya” həmin həkim-mütəxəssislərə həvəsləndirici əlavənin tətbiqinin davam etdirilib-etdirilməməsi barədə qərar qəbul edir.

## *4. Şəxsi keyfiyyətlərə dair göstəricilər*

Həkim-mütəxəssisin şəxsi keyfiyyətləri, onun sərgilədiyi davranış (öz bilikləri ilə digər əməkdaşlara bölüşməyə hazır olması, tövsiyələri ilə məsləhət verməyə hazır olması və s.), etik qaydalara riayət etməsi, tibb müəssisəsinin nüfuzunun artmasına verdiyi töhfə (həmin ixtisas üzrə pasiyent müraciətinin artması, mediada səsləndirilməsi və s.), tibb müəssisəsinin inkişafını təmin etmək üçün öz ixtisası üzrə öncədən tibb müəssisəsində istifadə edilməyən innovativ metodların araşdırılması və tətbiqinə dair göstərilən səylər üzrə bu Əlavənin 5.1-ci bəndində nəzərdə tutulmuş qiymətləndirmə formasına əsasən dəyərləndirilir.

## *5. Monitorinqin aparılması şərtləri*

5.1. Monitorinq zamanı Komissiya xəstəlik tarixçələri, ambulator kartlar, seçmə üsulu ilə aparılan pasiyent məmnuniyyətinə dair sorğunun nəticələri, tibb müəssisəsi rəhbərinin təqdimatı, hər göstərici üzrə 3 bal keçid olmaqla tibb müəssisəsinin rəhbəri tərəfindən doldurulan aşağıdakı qiymətləndirmə formasını və digər təsdiqedici sənədləri rəhbər tutur:

| *№* | *Həkim-mütəxəssisinin şəxsi keyfiyyətlərinin göstəriciləri* | *Uğursuz 1 bal* | *Zəif 2 bal* | *Qənaətbəxş 3 bal* | *Uğurlu 4 bal* | *Çox uğurlu 5 bal* |
|---|---|---|---|---|---|---|
| ***1.*** | *Sərgilədiyi davranış (öz bilikləri ilə digər əməkdaşlara bölüşməyə hazır olması, tövsiyələri ilə məsləhət verməyə hazır olması və s.)* | | | | | |
| ***2.*** | *Etik qaydalara riayət etməsi* | | | | | |
| ***3.*** | *Tibb müəssisəsinin nüfuzunun artmasına verdiyi töhfə (həmin ixtisas üzrə pasiyent müraciətinin artması, mediada səsləndirilməsi və s.)* | | | | | |
| ***4.*** | *Tibb müəssisəsinin inkişafını təmin etmək üçün öz ixtisası üzrə öncədən tibb müəssisəsində istifadə edilməyən innovativ metodların* | | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | *araşdırılması və tətbiqinə dair göstərilən səylər* | | | | | |

5.2. Monitorinq zamanı Komissiya tibb müəssisəsinin rəhbəri tərəfindən bu Əlavənin 3.3-cü bəndində nəzərdə tutulan hallarla bağlı müraciət edilmədiyini aşkar etdikdə müvafiq təsdiqedici sənədləri və əsaslandırılmış təqdimatı hazırlayaraq həmin həkim-mütəxəssislərə həvəsləndirici əlavənin tətbiq edilib-edilməməsi məsələsinə baxılması üçün “Xarici ölkədə təhsil almış həkim-mütəxəssislərə həvəsləndirici əlavənin tətbiq edilməsinin qiymətləndirilməsi üzrə Komissiya”ya təqdim etmək hüququna malikdir.